Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının 03 aprel 2024-cü il tarixli Q/02 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

# Dövlət sifarişi əsasında audiovizual məhsulların istehsalı və yayımı üzrə müsabiqənin Qaydaları

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 yanvar tarixli 1249 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Nizamnaməsi"nin 3.1.10-cu yarımbəndinin icrası məqsədilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (bundan sonra - Agentlik) tərəfindən yeni media mühitində auditoriya yönümlü və hədəf kütlələrə hesablanmış məzmun istehsalı və yayımının təşviqi, maarifləndirici materialların rəqabətədavamlılığının artırılması, məzmun müxtəlifliyi və yaradıcılığının stimullaşdırılması, dövlət və cəmiyyət üçün prioritet istiqamətlər barədə məlumatların ictimaiyyətə səmərəli şəkildə çatdırılmasına yönəlmiş müsabiqə ilə əlaqədar hüquqi və təşkilati məsələləri tənzimləyir.

1.2. Müsabiqənin başlama və bitmə tarixi Agentlik tərəfindən müəyyən edilir.

1.3. Müsabiqə barədə elan Agentliyin rəsmi internet saytında, habelə sosial şəbəkə hesablarında yerləşdirilir.

## 2. Müsabiqənin iştirak şərtləri

2.1. Müsabiqə ümumölkə yerüstü televiziya yayımçıları (bundan sonra - yayımçı) arasında təşkil edilir.

2.2. Müsabiqədə iştirak etmək istəyən yayımçı aşağıdakı tələblərə cavab verməlidir:

2.2.1. Media Reyestrinə daxil edilmiş olmalı;

2.2.2. yenidən təşkil (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə), müflis olma və ya ləğv prosesində olmamalı;

2.2.3. "Media haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun fəaliyyət göstərməli;

2.2.4. müraciəti Qaydaların tələblərinə uyğun olmalı.

2.3. Müsabiqəyə müraciət edən yayımçıdan aşağıdakıların təqdim olunması tələb edilir:

2.3.1. ərizə (bütün bəndləri doldurulmuş və imzalanmış olmalıdır) *(əlavə olunur)*;

2.3.2. ərizəni imzalayan şəxsin səlahiyyətini təsdiq edən sənədin və şəxsiyyət vəsiqəsinin skan olunmuş surəti;

2.3.3. Ümumölkə yerüstü televiziya yayımçısı lisenziyasının skan olunmuş surəti;

2.3.4. sinopsis;

2.3.5. layihə sənədi *(əlavə olunur)*;

2.3.6. yayımçının müsabiqəyə qədərki son 3 (üç) ay üzrə reytinq göstəricisi;

2.3.7. yayımçının sosial media hesablarının ("youtube" daxil olmaqla) son 3 (üç) aylıq hesabatı.

2.4. Müsabiqəyə təqdim edilən layihə sənədində aşağıdakılar göstərilməlidir:

2.4.1. layihənin adı;

2.4.2. layihənin aid olduğu mövzu;

2.4.3. layihənin müəllifi, aparıcısı (əgər varsa);

2.4.4. layihənin mövzuya uyğunluğu;

2.4.5. layihənin aktuallığı;
2.4.6. layihənin məqsədi, hədəf kütləsi və gözlənilən nəticələr;
2.4.7. layihənin formatı;
2.4.8. layihənin efirə gedəcəyi saat, gün və müddət;
2.4.9. layihənin efirə getmə dövriliyi;
2.4.10. layihənin icra mərhələləri;
2.4.11. layihənin vizual tərtibatı;
2.4.12. layihənin büdcə əsaslandırması (xərc istiqamətləri göstərilməklə)*(əlavə olunur)*.
2.5. Müsabiqəyə təqdim edilən hər bir layihə aşağıdakı mövzulardan birində olmalıdır:
2.5.1. Azərbaycanın dövlətçilik tarixi;
2.5.2. milli adət-ənənələr və ailə dəyərləri;
2.5.3. elm və mədəniyyət;
2.5.4. azərbaycançılıq ideologiyasının yeni istiqamətləri – milli ideyanın təbliği;
2.5.5. gənc nəsildə milli mənlik şüurunun, əxlaqi dəyərlərin və vətənpərvərlik hissinin inkişaf etdirilməsi;
2.5.6. elmi-kütləvi, mədəni-maarif, təhsil;
2.5.7. ekologiya və ətraf mühitin mühafizəsi;
2.5.8. uşaq və gənclərin fiziki və mənəvi inkişafı.
2.6. Müsabiqəyə təqdim edilən layihələrin formatı, müddəti və dövriliyi aşağıdakı tələblərə uyğun olmalıdır:
2.6.1. proqram – xronometrajı minimum 25 dəqiqə olmalı, həftədə ən azı 1 dəfə efirə getməli, müqavilədə göstərilən tarixdən etibarən 8 ay müddətində davam etməli;
2.6.2. sosial videoçarx – xronometrajı minimum 1 dəqiqə olmalı, müqavilədə göstərilən tarixdən etibarən ən azı 100 dəfə efirə getməli.

## 3. Müsabiqəyə müraciət qaydası

3.1. Müsabiqəyə müraciət Qaydaların 2.3.1-ci yarımbəndində göstərilən ərizənin kağız, 2.3.2-ci-2.3.7-ci yarımbəndlərində qeyd olunan sənədlərin isə ərizəyə qoşma edilməklə elektron daşıyıcıda Agentliyə təqdim edilməsi yolu ilə həyata keçirilir.
3.2. Bir yayımçı tərəfindən edilən müraciətlərin sayına məhdudiyyət tətbiq edilmir.
3.3. Müsabiqədə iştirak üçün təqdim olunmuş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə həmin çatışmazlıqların Qaydaların 1.2-ci bəndində nəzərdə tutulmuş müddət ərzində aradan qaldırılmasına yol verilir.
3.4. Müsabiqədə iştirak üçün müraciət etmiş yayımçı Qaydaları qəbul etmiş hesab edilir və təqdim edilmiş sənədlərin və məlumatların tamlığına və düzgünlüyünə görə cavabdehlik daşıyır.
3.5. Agentlik müsabiqədə iştirak üçün təqdim edilmiş sənədlərin əslini tələb etmək hüququna malikdir.

## 4. Qiymətləndirmə

4.1. Müsabiqəyə təqdim olunmuş layihələrin qiymətləndirilməsi Azərbaycan Respublikası Audiovizual Şurası (bundan sonra - Şura), Agentlik və sahə üzrə ekspertlərdən ibarət komissiya tərəfindən həyata keçirilir.
4.2. Qiymətləndirmə aşağıdakı meyarlar üzrə aparılır:
4.2.1. layihənin aktuallığı;
4.2.2. layihənin mövzuya uyğunluğu;
4.2.3. layihənin müəllifi, aparıcısı (əgər varsa);

4.2.4. layihənin orijinallığı;
4.2.5. layihənin innovativliyi;
4.2.6. layihənin efirə gedəcəyi saat, gün, müddət və dövrilik;
4.2.7. layihənin büdcəsinin səmərəliliyi;
4.2.8. layihənin vizual tərtibatı;
4.2.9. yayımçının müsabiqəyə qədərki son 3 (üç) ay üzrə reytinq göstəricisi;
4.2.10. yayımçının sosial media hesablarının ("youtube" daxil olmaqla) son 3 (üç) aylıq hesabatı.

4.3. Qaydaların 4.2-ci bəndində qeyd olunan hər meyar 0, 1, 2 ballarından biri ilə qiymətləndirilir.

4.4. Layihələrin topladığı ballar bərabər olduqda meyarlar üzrə ən aşağı ballarının sayı az olan layihə qalib hesab edilir.

4.5. Müsabiqənin tələblərinə cavab verməyən müraciətlər qiymətləndirilmir.

4.6. Müsabiqənin nəticəsi barədə məlumat Agentliyin rəsmi internet saytında, habelə sosial şəbəkə hesablarında yerləşdirilir.

## 5. Müqavilə üzrə qarşılıqlı öhdəliklər

5.1. Müsabiqənin nəticəsinə uyğun olaraq maliyyə vəsaitlərinin ödənilməsi qalib elan olunmuş yayımçı ilə Agentlik arasında müqavilə bağlanıldıqdan sonra həyata keçirilir.

5.2. Müqavilə üzrə vəsaitin ödənilməsi tərəflər arasında razılaşdırılmış dövriliklə icra olunur.

5.3. Müqavilə üzrə layihənin icrasının monitorinqi Şura tərəfindən həyata keçirilir, nəticələr Agentliyə təqdim edilir.

5.4. Layihə efirdə getdiyi müddət ərzində üç dəfə Agentliyin və Şuranın dəstəyi ilə hazırlandığına dair qaçan sətirlər yayımlanır.

5.5. Layihə yayımçının internet saytında, sosial şəbəkə hesablarında və "youtube" platformasında yerləşdirilir.

5.6. Layihə praym-taymda yayımlanır.

5.7. Yayımçı müqavilənin qüvvədə olduğu müddət ərzində hər ayın sonu müvafiq maliyyə vəsaitinin hansı istiqamətlərə xərcləndiyini təsdiq edən sənədləri Agentliyə təqdim edir.

5.8. Müqavilə öhdəlikləri pozulduqda müqaviləyə xitam verilir və icra edilməmiş öhdəliklər üzrə ödənişlər geri qaytarılır.

*Qaydalara*
*Əlavə №1*

**ƏRİZƏ**

“Dövlət sifarişi əsasında audiovizual məhsulların istehsalı və yayımı üzrə müsabiqənin Qaydaları”na uyğun olaraq təqdim etdiyim sənədlərin həmin müsabiqəyə qəbul olunmasını xahiş edirəm.

Bu ərizəni doldurmaqla müsabiqədə iştirak qaydalarını qəbul edirəm, habelə təqdim olunmuş sənədlərin və məlumatların tamlığına və düzgünlüyünə görə cavabdehlik daşıyıram.

İmza: ______________ /_______________________________________________________
*(adı, ata adı, soyadı, vəzifəsi)*

Əlaqə telefonları:

Elektron poçt ünvanı:

Tarix: “___” _________ 202 -ci il

*Qaydalara*
*Əlavə №2*

| Dövlət sifarişi əsasında audiovizual məhsulların istehsalı və yayımı üzrə müsabiqə çərçivəsində təqdim ediləcək layihə sənədi forması | | | |
|---|---|---|---|
| Müraciət edən yayımçının adı: | | | |
| Layihənin adı: | | | |
| Layihənin başlama tarixi: | | Layihənin bitmə tarixi: | |

**Müsabiqəyə təqdim edilən layihə sənədində aşağıdakılar göstərilməlidir:**

| | | |
|---|---|---|
| Layihənin aid olduğu mövzu<br>*Qaydaların 2.5-ci bəndinə uyğun olaraq* | | |
| Layihənin müəllifi, aparıcısı (əgər varsa) | | |
| Layihənin mövzuya uyğunluğu | | |
| Layihənin aktuallığı | | |
| Layihənin məqsədi, hədəf kütləsi və gözlənilən nəticələr | | |
| Layihənin formatı | ☐ Proqram<br>*proqram – xronometrajı minimum 25 dəqiqə olmalı, həftədə ən azı 1 dəfə efirə getməli, müqavilədə göstərilən tarixdən etibarən 8 ay müddətində davam etməli* | ☐ Sosial videoçarx<br>*sosial videoçarx – xronometrajı minimum 1 dəqiqə olmalı, müqavilədə göstərilən tarixdən etibarən ən azı 100 dəfə efirə getməli* |
| Layihənin efirə gedəcəyi saat, gün və müddət | | |
| Layihənin efirə getmə dövriliyi | | |
| Layihənin icra mərhələləri | | |

***Qeyd:*** *Layihənin vizual tərtibatı və büdcə əsaslandırması (xərc istiqamətləri göstərilməklə) müstəqil sənəd qismində ərizəyə əlavə edilir.*

İmza: _______________ /__________________________________________________________
*(adı, ata adı, soyadı, vəzifəsi)*

Tarix: “___” _________ 202 -ci il

*Qaydalara*
*Əlavə №3*

| Dövlət sifarişi əsasında audiovizual məhsulların istehsalı və yayımı üzrə müsabiqə çərçivəsində xərc istiqamətləri göstərilən büdcə əsaslandırması forması | | | | | |
|---|---|---|---|---|---|
| | Müraciət edən yayımçının adı: | | | | |
| | Layihənin adı: | | | | |
| | Layihənin formatı: | | | | |
| | Layihənin əhatə etdiyi dövr: | | | | |
| Büdcə təsnifatı № | Xərclərin adı və formalaşmasının təsviri | Ölçü vahidi | Vahidlərin sayı | Vahidin qiyməti | Büdcənin məbləği |
| I | Əməyin ödənişi və məcburi ödənişlər (zəruri əsaslandırma ilə birgə) | | | | |
| II | Mülk hüquq müqaviləsi əsasında ödənişlər (zəruri əsaslandırma ilə birgə) | | | | |
| III | Ezamiyyə xərcləri (zəruri əsaslandırma ilə birgə) | | | | |
| IV | Proqram və ya videoçarxın hazırlanması üçün məkanın icarəsi xərcləri (zəruri əsaslandırma ilə birgə) | | | | |
| V | Proqram və ya videoçarxın hazırlanması üçün avadanlığın icarəsi xərcləri (zəruri əsaslandırma ilə birgə) | | | | |
| VI | Proqram və ya videoçarx üçün video çəkilişlərinin təşkili xərcləri (zəruri əsaslandırma ilə birgə) | | | | |
| VII | Proqram və ya videoçarx üçün foto çəkilişlərinin təşkili xərcləri (zəruri əsaslandırma ilə birgə) | | | | |
| VIII | Xüsusi geyimlərin hazırlanması və ya icarəsi xərcləri (zəruri əsaslandırma ilə birgə) | | | | |
| IX | Digər xərclər (zəruri əsaslandırma ilə birgə) | | | | |
| Ümumi xərclərin cəmi: | | | | | |

İmza: ________________ /____________________________________________________________

*(adı, ata adı, soyadı, vəzifəsi)*

Tarix: “___” _________ 202 -ci il